# Təhsil naziri Naxçıvanda səfərdə olub









Oktyabrın 27-də təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfər edib.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyulub, Ulu Öndərin xatirəsi ehtiramla yad edilib.

Daha sonra Heydər Əliyev Muzeyi ilə tanışlıq olub, muzeyin ekspozisiyasına baxış keçirilib.

Səfər çərçivəsində Heydər Əliyev adına tam orta məktəbdə olan Emin Əmrullayev və nümayəndə heyəti sözügedən təhsil müəssisəsinin nəzdində yerləşən "STEAM Tədris Mərkəzi"ndə yaradılmış şəraitlə tanış olub, məktəbin laboratoriya kabinetlərinə baxış keçirib, eyni zamanda hərbi hazırlıq dərslərinin gedişatını izləyiblər.

Nümayəndə heyəti Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinə də baş çəkib, müxtəlif yaradıcılıq dərnəklərində məşğul olan şagirdlərin əl işləri ilə tanış olub.

# Ali təhsil müəssisələri ilə tanışlıq









Oktyabrın 27-də təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvana səfər çərçivəsində Naxçıvan Dövlət Universitetində olub.

Əvvəlcə Naxçıvan Dövlət Universitetində yaradılmış şəraitlə tanış olan nümayəndə heyəti universitetin memarlıq və mühəndislik, təbiətşünaslıq və kənd təsərrüfatı, eləcə də pedaqoji fakültələri üzrə auditoriyalarında olub. Tələbələrin startap layihələri ilə tanışlıqdan sonra beynəlxalq münasibətlər və hüquq fakültəsinin kriminalistika laboratoriyasında dərsdənkənar məşğələlərin gedişatı izlənilib.

Həmçinin Naxçıvan Dövlət Universitetinin Konservatoriyasında kamera orkestrinin ifası dinlənilib.

Daha sonra universitetin kollektivi ilə görüş keçirilib. Görüşdə ali təhsil müəssisəsinin fəaliyyəti, kadr hazırlığı istiqamətində görülən işlər barədə məlumat verilib.

Sonda təhsil naziri Emin Əmrullayevə universitetin hədiyyəsi təqdim olunub.

Səfər çərçivəsində Naxçıvan Müəllimlər İnstitutu ilə də tanışlıq olub.